# Çanaqqala etüdləri

Çənmi bu su Dardanel
Çanaqqala Çənlibel
tarixçən Atatürkcə
ingiliscə dünyanın
bir savaş günü türkcə

sizə kimdən deyim
kimlərdən
deyim dəli könüllərdən
könüllü dəlilərdən

ölən xınalandı öldü
yarasından bilindi
atəşə tənböləndi

ayaqsız qalmış mehmetçik
ruhunu tapşırdı göyə
batan düşmən gəmisini görməyə
"hamımızın öldüyünü
bəyan etməyə yalnız
geri gedə biləriz"
qalxdı şəhid
məzarı səngər olan zirvəyə

qəhrəman ayağı altda
saçın xınalandı torpaq
şəhidlər məzarı üstdə
xınalı saçındı bayraq

Türkiyəm
keçirt məni yaxandan
Dardanel boğazından

**QARDAŞXAN ƏZİZXANLI**

